**Aynurə Sahib qızı Abbaszadə** [115]

# VİRCİNİYA VULF VƏ ŞÜUR AXINI ƏDƏBİYYATI

**GİRİŞ:** XX əsr dünya ədəbiyyatı tarixinin ən məşhur cərəyanlarından biri də modernizm ədəbi cərəyanı olmuşdur. Onun belə geniş yayılıb inkişaf etməsinin əsas səbəbi isə özünəməxsus yaradıcılıq texnika və üsullarının olması idi ki, bunlardan ən başlıcası "şüur axını" ədəbi priyomu idi: "Şüur axını" yazı texnikası kimi fikir və təəssüratların xaosunu, şüurun ən cüzi hərəkətlərini canlandıran məntiqsiz daxili monoloqu təmsil edir. Bu, ardıcıllıqla əmələ gələn, bir-birini əvəzləyən və məntiqsiz üst-üstə yığılmalarla dolan fikirlərin sərbəst assosiativ axınıdır" [1, səh. 33]. Modernizm hərəkatının ən başlıca texnikalarından biri olan bu üsuldan Ceyms Coys, Marsel Prust, Virciniya Vulf, Uilyam Folkner kimi görkəmli sənətkarlar öz yaradıcılıqlarında istifadə etmiş və bununla da qəhrəmanların daxili dünyasına enməyə, onun davranışlarının zahiri tərəfini yox, əsl mahiyyətini açmağa nail olmuşlar.

Bir anlayış kimi isə "şüur axını" ("stream of consciousness") anlayışını ilk dəfə amerikalı filosof Uilyam Coys özünün 1890-cı ildə yazdığı "Psixologiyanın əsasları" kitabında irəli sürmüşdür. Bəs "bu texnikadan ilk dəfə hansı yazıçı öz yaradıcılığında istifadə etmişdir?" sualına cavablar isə birmənalı deyil. Belə ki, Qorxmaz Quliyevin də "Ədəbi cəəryanlar və istiqamətlər" monoqrafiyasında qeyd etdiyi kimi: "Tədqiqatçıların əksəriyyəti iddia edirlər ki, şüur axını ilk dəfə M.Prustun 1913-cü ildə işıq üzü görmüş "Svangil istiqamətində" ("İtirilmiş zamanın axtarışında" silsilə romanlarının birinci cildi) əsərində öz əksini tapmış, C.Coysun "Uliss" (1920) romanında isə davam və inkişaf etdirilmişdir. Coysun özü isə belə hesab edirdi ki, ilk dəfə bu texnikadan məqsədyönlü şəkildə fransız yazıçısı E.Düjarden "Yıxılmış dəfnələr" (1887) romanında istifadə etmişdir. Coys həmçinin etiraf edir ki, "Uliss" romanını məhz bu əsərin təsiri altında yazmışdır" [4, səh. 235].

Həqiqətən də, M.Prust, C.Coys kimi məşhur sənətkarlar bu texnikadan böyük ustalıqla öz əsərlərində istifadə etmiş və bu anlayışın praktiki baxımdan mahiyyətini ilk dəfə onlar oxuculara göstərmiş, izah etmişdirlər. Məhz onların yaradıcılığı, bu yaradıcılıqda əks olunan modernist görüşləri dünyanın ən məşhur qadın yazıçılarından biri olan V.Vulfa böyük təsir etmiş və onun bir modernist sənətkar kimi yetişməsində böyük rol oynamışdır. Məhz bundan sonra V.Vulf bu texnikanı – "şüur axını" bədii texnikasını özünün bir çox məşhur əsərlərində, ən əsası isə "Missis Dellouey" ("Mrs. Dalloway", 1925), "Mayaka doğru" ("To the Lighthouse", 1927) və "Dalğalar" ("The Waves, 1931) kimi məşhur romanlarında tətbiq etmiş və bunun nəticəsində də "şüur axını" ədəbiyyatının ən məşhur nümayəndələrindən birinə çevrilmişdir. Bu məqalədə də məhz V.Vulfun "şüur axını" ədəbiyyatında yeri və rolu araşdırılıb bu ədəbiyyatın onun yaradıcılığına necə təsir etdiyi təhlil olunacaqdır.

**ƏSAS HİSSƏ:** Virciniya Vulf dünya ədəbiyyatı tarixində modernizm ədəbi cərəyanının ən məşhur nümayəndələrindən biri kimi tanınır. Vulf özünün hər bir əsərində modernizmin yaradıcılıq prinsiplərinə, yazı üslublarına və ən əsası modernizmin başlıca ideyası – yenilik ideyasına sadiq qalmış və bu ənənələri öz əsərlərində inkişaf etdirmişdir. Bu baxımdan, təbiidir ki, müəllif modernizmin ən məşhur yazı üslubu olan "şüur axını" texnikasından məharətlə özünün əsərlərində geniş şəkildə istifadə etmiş və bununla da "şüur axını" ədəbiyyatının yaradıcılarından biri olmuşdur. V.Vulfun yaradıcılığı başdan-başa "şüur axını" anlayışına əsaslanır.

Bu baxımdan ilk olaraq müəllifin "Missis Dellouey" əsəri böyük maraq doğurur. Əsər1925-ci ildə yazılmış və Vulfa dünya şöhrəti qazandırmışdır. Əsərin baş qəhrəmanı əlli iki yaşında olan bir qadın– Klarissa Delloueydir (Clarissa Dalloway).Əsərdə hadisələr çox qısa bir zaman ərzində – təxmini 12 saat ərzində baş verir. Və maraqlısı da budur ki, bu zaman – baş verən hadisələr ardıcıl deyil. Müəllif əgər bir yerdə bu gündən – indi baş verən hadisələrdən – Klarissanın qonaqlıq verməsindən, illərdir görmədiyi dostu Piter Uelşin gəlməsindən danışırsa, anidən keçmişə – Klarissanın əvvəllər yaxın dostu olan Salli Setonla bir şənlikdə tanışdığı zamana gedib o vaxtı təsvir edir və eyni şəkildə qəfildən əsərin digər əsas, açar obrazlarından biri – I Dünya müharibəsində iştirak etmiş və ciddi travmalar almış Septimus Uarren Smiti, onun yaşadıqlarını, hətta onun müharibə dövründən xəyalında canlanan anları, gözü önündə ölmüş dostu Evansı təsvir edir. Bununla da o, ilk başda xronoloji ardıcıllığı pozmuş, bununla da "şüur axını"texnikasını çox ustalıqla tətbiq etmişdir.

Onsuz da Vulf bir yazıçı kimi yaradıcılıqda heç bir zaman xronoloji ardıcıllıq anlayışını qəbul etməmişdir: "Yazıçı özü isə 1919-cu ildə yazdığı "Müasir nəsr" adlı məqaləsində qeyd edir ki, ... yeni romanlar köhnə şərtlərdən, xronoloji ardıcıllıqdan azad olmalıdır" [3, səh. 61].

Əsərdə sanki obrazlar da bir-biri ilə həmahəngdir. Hətta əsərdə bəzən bir obraz digərinin xarakterinin açılmasına, əsl niyyətinin, düşüncələrinin anlaşılmasına yardım edir. Buna ən başlıca nümunə kimi Septimus və Klarissa obrazlarını nümunə göstərə bilərik. Əsəri tədqiq edən bir çox ədəbiyyatşünas alimlər bu iki obrazı bir-birini tamamlayan, bir-birinin daxili xüsusiyyətlərinin açılmasına xidmət edən obrazlar kimi təqdim etmiş, Septimus obrazını isə Klarisanın "ruh əkizi" də adlandırmışlar. Müəllifin özü isə öz gündəliyində bu iki obrazı "bir medalın iki üzü" hesab etdiyini qeyd etmişdir. Çünki

115 ***Magistrant.*** **Bakı Dövlət Universiteti aynura.abbaszada@gmail.com +994505387857**

əsərdə biz obrazları xarici əlamətlərinə, dildə dediklərinə, yaşam tərzlərinə görə yox, daxili xüsusiyyətlərinə – əslində demək istəyib lakin deyə bilmədiklərinə görə tanıyıb anlayırıq. Bu isə daxili monoloqlar vasitəsilə gerçəkləşir. Obrazın düşüncələrinin, xarakterinin, psixologiyasının açılmasında istifadə olunan bu ən uğurlu vasitə – daxili monoloq isə birbaşa şüur axını ədəbiyyatının başlıca xüsusiyyətidir.

Bu əsərdə isə daxili monoloqları vasitəsilə xarakteri açılan şəxs Klarissa obrazıdır. Onun xarakterinin açılmasında başlıca rol oynayan obraz isə Septimus Uarren Smitdir. Belə ki, Septimusun intihar etməsi, yaşamaqla ölüm arasındakı mübarizədə seçimi Klarissanı çox sarsıdır. Çünki o özü də dəfələrlə intihar haqda düşünmüş, lakin buna cəsarət edə bilməmişdi. Septimusun bu hərəkəti isə onu özünü daxildə sorğulamağa məcbur edir: "Septimus Klarissanın görünməyən "üzü", onun gizli düşüncələrinin dilmancı, aşkar deyə bilmədiyi fikirlərinin daşıyıcısıdır. Əgər Septimus dəli kimi həqiqəti danışırsa, Klarissa ətrafında baş verənlərə göz yummağa çalışır. Klarissa daxili dünyasında yalnız özü ilə danışır, yaxınlarıyla bölüşmür və susmağı tərcih edir. Septimus əksinə daxili dünyasında bütün insanlarla, bəşəriyyətlə danışır və fikirlərini aşkar səsləndirir. Septimus intihar etməyi dilə gətirir və onu reallaşdırır. Klarissa ölüm haqda fikirləşir, lakin yaşamağa davam edir" [6, səh. 42].

Septimus obrazı, onun gördüyü hallüsinasiyalar, davranışı, əməlləri və ən əsası sonda intiharı tək Klarissa obrazı ilə bağlılığını ifadə etmir, eyni zamanda bu obrazın müəyyən dərəcədə müəllifin özü ilə əlaqəsini, yaxınlığını açıb göstərir. Çünki bildiyimiz kimi, müəllifin özü də bir neçə dəfə intihara cəhd etmiş və ən sonda intihar etmişdir. Bununla bağlı Günel Məhəmmədfatehli özünün "Şüur axını və mətn hermenevtikası" adlı məqaləsində belə yazır: "Septimus obrazının şüuruna səyahət etdikdə onun hallüsinasiyaları ilə qarşılaşırıq. Septimusun sanrılarını həm Virciniya Vulfun illüziyalar, hallüsinasiyalar görən, onu intihara sürükləyən depressiv tərəfinin rəsm edilmiş halı kimi, həm də müharibənin o zaman bir insanda yarada biləcəyi ağır psixoloji problemlərin siması kimi şərh edə bilərik. Biz V.Vulfun və həyat yoldaşı Leonard Vulfun qeydlərində müəllifin də sanrılar gördüyünün şahidi oluruq" [5, səh. 164].

Müəllifin yaradıcılığının digər maraqlı bir nümunəsi isə 1927-ci ildə yazdığı "Mayaka doğru" ("To the Lighthouse") əsəridir. Əsər V.Vulf yaradıcılığında çox qiymətli bir yerə malikdir. Hər şeydən əvvəl bu onunla bağlıdır ki, müəllif məhz bu əsərində də "şüur axını" ədəbi texnikasından məharətlə istifadə etmiş və bu obrazların xarakterinin, onların əməllərinin oxucu tərəfindən daha yaxşı qavranılmasına səbəb olmuşdur. Eyni zamanda bu romanı bizim üçün daha qiymətli edən isə müəllifin məhz bu romanında öz həyatından olan məqamlara toxunması, öz uşaqlıq xatirələrini əks etdirməsidir: "Bu romanda yazıçı uşaqlıq xatirələrinə dayanaraq anası ilə atasından bəhs edir və buna görə də avtobioqrafik sayıla biləcək başlıca romanıdır. Oksford, Kembric qədər məşhur olmayan bir universitetin fəlsəfə müəllimi, ailədə qəddar olan, həmişə əsəbi, tez özündən çıxan bir şəxs olan cənab Ramsey Lesli Stefeni, mülayim xarakterli xanım Ramsey isə Culiya Dekvortu xatırladır. Virciniya Vulf romanda atasıyla anasını o qədər açıq və aydın canlandırır ki, sanki əlimizi uzatsaq, onlara toxuna bilərik" [2, səh. 23].

Öz ideya və anlayışlarına görə bu əsər bizə "Missis Dellouey" əsərini xatırladır. Belə ki, hər iki əsərdə obrazların daxili aləminə, bu aləmin açılmasına daha çox diqqət yetirilmiş və qadın taleyi məsələsi hər iki əsərin əsas – başlıca problemi kimi qoyulmuşdur. Əsərin baş qəhrəmanı əlli yaşlı xanım Ramseydir. Səkkiz uşaq anası olan bu qadın həyat yoldaşından fərqli olaraq övladlarına və ətrafdakılara qayğıkeşliyi, mərhəməti ilə seçilən bir obraz kimi diqqəti cəlb edir. O, əsərin yalnız birinci hissəsində çıxış etsə də, bütün hadisələr sanki onun ətrafında cərəyan edir və müəllifin özü də məhz bu obrazın şüuru, düşüncələri ilə daha çox maraqlanıb, onun xarakterinin açılmasına daha çox diqqət yetirir və bu da təbiidir ki, bu, daxili monoloqlar vasitəsilə gerçəkləşir. Biz xanım Ramseyin daxili monoloqlarında onun həyat və ətrafındakı, ailəsindəki digər şəxslər haqqındakı düşüncələri ilə, onlara münasibəti ilə tanış olub daha dərindən öyrənirik. Məhz buna görə də bu əsər V.Vulfun "şüur axını" texnikasından məharətlə istifadə etdiyi bir əsər kimi diqqəti özünə cəlb edir.

V.Vulf yaradıcılığının digər maraqlı bir nümunəsi isə 1931-ci ildə yazdığı "Dalğalar" ("The Waves") əsəridir. Bu roman Vulfun yaradıcılığındakı digər əsərlərinə bənzəməyib onlardan fərqlənir. Bu roman müəllifin yaradıcılığı boyu axtarışında olduğu yenilik, yeni roman atxarışının yekunu kimi səslənir. Əbəs yerə deyil ki, müəllifin özü də bu romanı "özümə aid tərzdə yazıdığım ilk romanım" adlandırmışdı.

Həcm etibarilə o qədər də böyük olmayan əsəri müəllifin digər əsərlərindən fərqləndirən ilk xüsusiyyət bu idi ki, əsərdə bir yox, altı baş qəhrəman vardır və onların hər birinin daxili aləmləri məhz "şüur axını" texnikası ilə açılıb oxucuya təqdim olunur. Belə ki, "bu qəhrəmanlar daima daxili aləmləriylə ünsiyyətdədirlərvə roman boyu, demək olar ki, bir-birləriylə danışmırlar...Sanki bu qəhrəmanlar bir-birlərinin daxili aləmlərinə sirli bir əlaqəylə bağlıdırlar" [2, səh. 30].

Əsərdə "şüur axını" texnikasından məharətlə istifadə olunan məqamlardan biri də yeddinci obrazın – iyirmi beş yaşında ikən dünyasını dəyişən Persival adlı obrazın altı dost tərəfindən xatırlandığı məqamdır. Belə ki, biz Persivalı görməsək də, qəhrəmanların xatirələrində, onun haqqında olan söhbətlərində onu tanıyırıq ki, bu da "şüur axını" texnikası vasitəsilə mümkün olur. Bu baxımdan əsər böyük maraq doğurmuş və hətta bəziləri tərəfindən V.Vulfun şah əsəri belə hesab olunmuşdur.

Yekun olaraq onu qeyd etməliyik ki, bütün sadalanan bu xüsusiyyətlərə görə hər üç əsər çox dahiyanə əsərlər olmaqla öz yaradıcılıq xüusisyyətlərinə görə nəinki V.Vulf yaradıcılığının, eyni zamanda "şüur axını" ədəbiyyatının ən layiqli, ən görkəmli nümunələri, təmsilçiləridir.

**NƏTİCƏ:** XX əsr dünya ədəbiyyatına yön verən ən başlıca istiqamətlərdən biri də modernizm ədəbi cərəyanı olmuşdur ki, bunun da ən başlıca səbəblərindən biri bu istiqamətin özünəməxsus, yeni və yaradıcı yanaşmaları, ideya-istiqamətlərinin olması idi. Bu ideya-istiqamətlərdən, texnikalardan ən başlıcası isə "şüur axını" ədəbi priyomu idi ki, bu anlayış modernizmin yeni və yaradıcı yanaşmasının ən başlıca "məhək daşı" hesab olunur və bu texnikanı öz yaradıcılıqlarına uğurla tətbiq edən şəxslər isə yeni bir istiqamətin – "şüur axını" ədəbi istiqamətinin nümayəndələri olmuşlar. Bu məqalədə də həmin görkəmli şəxslərdən biri olan Virciniya Vulfun yaradıcılığı, onun yaradıcılığının "şüur axını" ədəbiyyatında yeri və rolu araşdırılmış və tədqiq olunmuşdur.

Ümumiyyətlə, "şüur axını" texnikasını öz yaradıcılıqlarına məharətlə tətbiq edən başlıca şəxslər kimi isə ədəbiyyat tarixində heç şübhəsiz ki, C.Coys ("Uliss" əsəri), M.Prust ("İtirilmiş zamanın axtarışında" silsilə romanları) kimi görkəmli şəxslərin adı ilk növbədə çəkilməlidir. V.Vulfun özü də, şübhəsiz ki, modernizmin əsas sütunu, dayağı olan bu iki şəxsdən çox şey öyrənib öz yaradıcılığına tətbiq etmiş, hətta yeri gəldikdə öz yaradıcılığında onlara yeni baxış bucağından yanaşıb inkişaf da etdirmişdir. Bu məqalədə də məhz Vulfun bu yeni yaradıcı yanaşmaları – "şüur axını" ədəbi texnikasının özünəməxsus şəkildə əsərlərinə tətbiq edilib uğurla inkişaf etdirilməsindən bəhs olunmuşdur. Bu baxımdan müəllifin öz yaradıcılıq xüusisyyətlərinə görə böyük maraq doğuran üç əsəri – romanları araşdırma predmetinə çevrilmişdir ki, həmin əsərləri "Missis Dellouey", "Mayaka doğru" və nəhayət, "Dalğalar" əsəridir. Hər üç əsər məqalənin həcm xüsusiyyətləri nəzərə alınmaqla ümumi şəkildə, lakin əsas məqamlara toxunulub əsas xüsusiyyətlər nəzərə alınaraq təhlil olunmuş və adı çəkilən məqalədə onların, ümumilikdə isə V.Vulf yaradıcılığının "şüur axını" ədəbi istiqamətində yeri və rolu öyrənilmişdir.

## İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT


1. Əliyeva D. Nəsrdə "şüur axını"nın analitik xarakteri. Elmi əsərlər. Cild 12 №3 2021(47): 32-36.
2. Fərəcova A. Virciniya Vulf və psixoloji roman janrı. Bakı – 2015, 79 s.
3. Hüseynova S. Virciniya Vulfun "Onun öz otağı" əsərində yaradıcı qadın axtarışları və yazıçı "mən"i. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu Müqayisəli Ədəbiyyatşünaslıq Beynəlxalq Elmi Jurnal. Bakı, Elm və Təhsil. 2021: 59-65.
4. Quliyev Q. Ədəbi cərəyanlar və istiqamətlər. Monoqrafiya. Bakı, "OL" NPKT, 260 s.
5. Məhəmmədfatehli G. "Şüur axını" və mətn hermenevtikası. AMEA Nizami Gəncəvi adına Ədəbiyyat İnsitutu. Poetika.izm, 2024, №1: 162-166.
6. Salamova Ə. Virciniya Vulf və Marqaret Drabl yaradıcılığında feminizm. Bakı – 2022.



## XÜLASƏ

XX əsr dünya ədəbiyyatının ən məşhur ədəbi istiqamətlərindən biri də "şüur axını" ədəbi istiqaməti olmuşdur. Bu istiqamət öz adını modernizm ədəbi cərəyanının başlıca anlayışı olan "şüur axını" bədii üsulundan almışdır. Şüur axını dedikdə isə, ümumilikdə, daxili monoloqlar vasitəsilə qəhrəmanların iç dünyasına nüfuz edilib onların xarakterinin açılması nəzərdə tutulur. Bu üsuldan əsərlərində geniş şəkildə istifadə edən şəxslərdən biri isə V.Vulf olmuşdur. Onun bu ədəbi priyomdan ən geniş şəkildə istifadə etdiyi əsərləri isə "Missis Dellouey", "Mayaka doğru", "Dalğalar", "Orlando" kimi əsərləridir.



**Açar sözlər:** Virciniya Vulf, şüur axını, modernizm, daxili monoloq.



## ABSTRACT

One of the most famous literary movement of $20^{th}$ century world literature was the "stream of consciousness" literary movement. This movement takes its name from the "stream of consciousness" arthisticmetod, which is the main concept of the modernist literary movement. Stream of consciousness generally refers to penetrating the inner world of characters and revealing their character through internal monologues. One of the people who used this method extensively in her works was V,Woolf. She has used this literary technique extensively in works such as "Mrs Dalloway", "To the Lighthouse", "The Waves" and "Orlando".



**Key words:** Virginia Woolf, stream of consciousness, modernism, inner monologue

**RƏYÇİ: dos. L.Ələkbərova**